# İmişli: sosial-iqtisadi uğurlar



**İmişlidə 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirildi. Tədbirdə rayonun idarə, müəssisə, təhsil təşkilatları, kənd icra nümayəndəlikləri, hüquq-mühafizə orqanlarının və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbir iştirakçıları ilk öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Heydər Əliyev Mərkəzində keçirilmiş yığıncağı rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev açaraq toplantı iştirakçılarını salamlamış, 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran məsələlər barədə məruzə ilə çıxış edərək vurğulamışdır ki, 2016-cı il ərzində İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur.**

Belə ki, iqtisadiyyatın əsas sahələri üzrə 552.699.100 manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir ki, onun 337.643.000 manatı və ya 61 faizi sənaye, 112.500.500 manatı və ya 20,3 faizi kənd təsərrüfatı, 37.564.300 manatı və ya 6,9 faizi tikinti, 56.030.800 manatı və 10,1 faizi ticarət və iaşə, 8.401.400 manatı və ya 1,6 faizi nəqliyyat, 559.100 manatı və ya 0,1 faizi rabitə müəssisələrinin payına düşür. Göründüyü kimi rayon iqtisadiyyatında əsas yeri sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı tutur. Rayonda aparılan abadlıq və quruculuq işlərindən danışan icra başçısı bildirdi ki, İmişli şəhəri Heydər Əliyev prospekti, S.Fətəliyev, M.Müşviq, H.Aslanov və Q.İsmayılzadə küçələri təmir olunaraq asfalt örtüyü qoyulmuşdur. 2016-cı ilin 12 ayında ümumi istifadədə olan avtomobil yollarının saxlanması və cari təmir işlərinə 36 saylı yol istismarı idarəsi tərəfindən 871.2 min manatlıq məbləğində iş həcmi yerinə yetirilmişdir. İmişli dolama yolunda 8 km avtomobil yolunun alt qatına asfalt-beton qoyulmuşdur. İmişliyə giriş yolunda 0-7 km sahəsində əsaslı təmir işləri aparılmışdır. Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İmişli şəhərində 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasında tikinti işləri tamamlanmaq üzrədir. Həmçinin rayonda bu təbəqədən olan insanlar üçün növbəti, ikinci 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasının tikintisi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsinin, "ASAN" Xidmət Mərkəzinin inzibati binalarının tikintisi nəzərdə tutulmuş, "Azərişıq" ASC-nin İmişli rayonu Elektrik Şəbəkəsinin isə inzibati binasının tikintisinə başlanılmışdır.

Sənaye məhsullarının istehsalından danışan Vilyam Hacıyev qeyd etdi ki, aqrar rayonu olmasına baxmayaraq bu gün İmişlidə sənaye də inkişaf etmişdir. Son illər rayonda emal sənayesinin inkişafı üçün bir sıra işlər görülmüş, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin Kəllə qənd, Qarışıq Yem, Bitki Yağları, Spirt emalı, Çuğundur yemqurutma zavodları, Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaragüvəndikli kəndində damazlıq yumurta istehsal edən "Araz Damazlıq quşçuluq" MMC, İmişli Broyler və "Araz" Konservləşdirilmiş Şirələr və Konyak zavodu istifadəyə verilmişdir. 2016-cı ildə ilkin məlumatlara əsasən 337.643.000 manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.7 dəfə çox olmuşdur. Bu artım əsasən Şəkər Zavodunun istehsal rejimində işləməsi ilə əlaqədar olmuşdur. İstehsal olunan sənaye məhsullarının 95,7 faizi qeyri-dövlət sektorunun payına düşür. Rayonda iri neft sənaye müəssisəsi olan Aran OİL Operating Companiy 9,6 min ton neft məhsulu istehsal etmiş, dövlət sektorunu əhatə etməklə ümumi həcmdə məhsul istehsalının 0,2 faizini təşkil etmişdir. Ümumiyyətlə İmişli Şəkər Zavodunda 2016-cı ildə 391.845 ton şəkər tozu istehsal olunmuş, o cümlədən başqa sifarişçiyə məxsus xammaldan 46.100 ton şəkər tozu emal olunmuşdur. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı açıqlama verən natiq rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyini bildirdi və aparılan aqrar islahatların uğurla həyata keçirilməsi nəticəsində torpağın əmlakın xüsusi mülkiyyətə verilməsi, torpaq istifadəçilərinin əkiləcək kənd təsərrüfatı bitkilərini özləri müəyyən etmələrinin bu sahədə marağın artırılmasına səbəb olduğunu bildirmişdir. Lakin son illərdə olduğu kimi pambıq və taxılçılıq əsas bitkiçilik sahəsi kimi qalmaqdadır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizdə 2017-ci ildə 120 min hektar torpaq sahəsində pambıq əkilməsi ilə bağlı tapşırıq vermişdir. 2016-cı ildə rayonumuzda 5051 hektar pambıq əkilmiş, 10 min tondan yuxarı məhsul toplanmışdır. Məlumat üçün bildirirəm ki, bu il İmişli rayonunda 10.000 ha torpaq sahəsində pambıq əkilməsi nəzərdə tutulmuşdur. 2016-cı ildə



heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 94.658, qoyunların sayı 256721, quşların sayı isə 1036039 başa çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qara 728 baş, qoyunlar 3659 baş artmışdır. Ət istehsalı (diri çəkidə) 8438 ton, süd istehsalı 49555,2 ton, yumurta istehsalı isə 100730 min ədəd olmuşdur. 01 yanvar 2017-ci il tarixə kimi 10820 hektar sahədə buğda, 6186 hektar sahədə arpa, 232 hektar sahədə kartof, 326 hektar sahədə bostan, 206 hektar sahədə tərəvəz, 165 hektar sahədə dən qarğıdalı, 5051 hektar sahədə pambıq, 211 hektar sahədə isə şəkər çuğunduru əkilmişdir. 2016-cı ilin 12 ayı ərzində 18674 ton arpa, 36788 ton buğda məhsulu istehsal edilmiş və məhsuldarlıq 35,5 sentner olmuşdur.

Qeyd olundu ki, əhalinin sosial müdafiəsi ilə bağlı cənab Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş Dövlət proqramları uğurla icra edilmiş və bunun nəticəsində İmişli rayonunda 2016-cı ildə 757 iş yeri və ümumilikdə isə 23228 iş yeri açılmışdır. Rayon əhalisinin məşğulluğunun təmin olunması ilə bağlı müvafiq tədbirlər həyata keçirilmiş, qəbul olunmuş Məşğulluq Strategiyasının icrasından irəli gələn məsələlərin həlli istiqamətində bundan sonra da işlər görüləcəkdir. 2016-cı ildə gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı sosial yardımların verilməsi təmin edilmiş, 1320 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir.

Çıxış edən İmişli Elektrik Şəbəkəsinin baş mühəndisi Tofiq Ocaqov bildirdi ki, 2016-cı il ərzində təsdiq edilmiş əsaslı və cari təmir qrafikinə əsasən balansda olan yarımstansiyalarda və hava elektrik veriliş xətlərində planlaşdırılmış istehsalat təmir işləri aparılmış, müəssisənin mövcud imkanları səfərbər edilərək enerji təchizatındakı problemlərin həll edilməsinə yönəlmişdir.

"MKT-İmişli" filialının direktor müavini Məcnun Şükürov çıxış edərək bildirdi ki, 2016-cı ildə 3928 hektar torpaq sahəsində 194 fermerlə müqavilə bağlanmışdır. Bağlanmış müqavilədən "MKT-İmişli" filialına kondisiya çəkidə 8878 ton 311 kiloqram xam-pambıq tədarük olunmuşdur.

"MKT-İmişli" filialında 2017-ci ildə 7860 hektar torpaq sahəsinə 584 fermer tərəfindən müraciət olunmuşdur. Filial mütəxəssisləri tərəfindən 6100 hektar sahəyə baxış keçirilmişdir. Hazırda sahələrə baxış keçirilməsi davam etdirilir. Bu günə kimi fermerlər pambıq zavodunun texnikaları ilə və fərdi vətəndaşlarda olan texnikalarla 5469 hektar sahədə şum aparmışlar. Hazırda pambıq əkiləcək sahələrin şumlanması davam etdirilir. O cümlədən şumlanmış sahələrdə qış aratı aparılır.

İmişli Suvarma Sistemləri İdarəsinin rəisi Nizami Məmmədov çıxış edərək bildirdi ki, idarə 43551 hektar suvarılan torpağa xidmət edir. Əkin sahələrinə 1177 km uzunluğunda Boztəpə, Qızılarx, Köhnə Rəsul arx, Köhnə Əzizbəyov, Rəsul arx, R-2, Arazyanı, Beşdənbir və sair kanallar vasitəsilə xidmət göstərilir.

2016-cı il ərzində ümumilikdə 646.6 km uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalları lildən təmizlənmişdir.

Qeyd edək ki, Boztəpə, R-2, Gavur arxı, Beşdənbir, Qulubəyli qolu, Qızıl arxı, MTS arxı kimi təsərrüfatlararası suvarma kanallarında əsaslı şəkildə lildəntəmizləmə və təmir işləri görülmüşdür.

Hesabat yığıncağında Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev, Milli Məclisin deputatları Çingiz Qənizadə və Əsabil Qasımov iştirak ediblər.

Sonda yığıncaq iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

**Ərəstun ABDULOV,**
**"Respublika".**